№ 05-06 (837) 31 mart 2026-cı il ○ Qəzet 1991-ci ildən nəşr olunur ○ www.health.gov.az; ○ www.tibbqazeti.az

# TİBB qəzeti

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi



Əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

2



«Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyası»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

2



«Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

3

## Leyla Əliyeva Nərimanov Uşaq Klinik Xəstəxanasını ziyarət edib



Ziyarət zamanı Leyla Əliyeva xəstəxanada müxtəlif diaqnozlarla stasionar müalicə alan uşaqların səhhəti ilə maraqlanıb, onların müalicə prosesi və yaradılmış şəraitlə yaxından tanış olub. O, həmçinin azyaşlı pasiyentlər və onların valideynləri ilə görüşüb, onlara mənəvi dəstək göstərib, uşaqlara hədiyyələr təqdim edib.

Səhiyyə naziri Teymur Musayev və TƏBİB-in İcraçı direktoru vəzifəsini müvəqqəti icra edən Anar İsrafilov Leyla Əliyevaya tibb müəssisəsinin fəaliyyəti, göstərilən ixtisaslaşmış tibbi xidmətlər və mövcud maddi-texniki baza barədə ətraflı məlumat veriblər.

4



## Leyla Əliyeva Bakı Şəhər Narkoloji Mərkəzini ziyarət edib

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakı Şəhər Narkoloji Mərkəzini ziyarət edib.

Səh. 4

## Leyla Əliyeva və Arzu Əliyeva Pediatriya Mərkəzində olublar



Səh. 5

## Milli Məclisin plenar iclaslarında səhiyyə məsələlərinə toxunulub



Mart ayında Milli Məclisin yaz sessiyasında növbəti plenar iclaslar keçirilib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, ilk iclasda qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) 2025-ci ildə ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzəsi dinlənilib.

3

## Azərbaycanda dərman bazarına necə nəzarət edilir?



Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzinin (AEM) direktoru Murad Süleymanov mərkəzin əsas fəaliyyət istiqamətləri, dərman vasitələrinin keyfiyyətinə nəzarət prosesi, saxta və keyfiyyətsiz dərmanların qarşısının alınması üçün yaradılan yeni mexanizmlər, rəqəmsallaşma və elektron sistemlərin ekspertiza prosesinə inteqrasiyası, həmçinin regionlarda dərman təminatı və keyfiyyətə nəzarət sahəsindəki vəziyyət ilə bağlı AZƏRTAC-a müsahibə verib.

8

# Əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə icbari tibbi sığortanın tətbiqi sahəsində islahatların davam etdirilməsi məqsədilə **qərara alıram:**

**1.** İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi publik hüquqi şəxsin əhalinin icbari tibbi sığortası sahəsində səlahiyyətləri (bu Fərmanın 3.3-cü bəndi nəzərə alınmaqla) Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə edilsin.

**2.** İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi publik hüquqi şəxsin və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi publik hüquqi şəxsin birləşmə formasında yenidən təşkili yolu ilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi publik hüquqi şəxs (bundan sonra - Agentlik) yaradılsın.

**3.** Müəyyən edilsin ki:

3.1. Agentlik Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqi, xidmətlər zərfi çərçivəsində tibbi xidmətlərin maliyyələşdirilməsi üçün vəsaitin icbari tibbi sığorta fondunda cəmləşdirilməsi və həmin vəsaitin idarə olunması, icbari tibbi sığorta üzrə dövlət adından tibbi xidmətlərin mərkəzləşdirilmiş alıcısı və xərclərin ödənilməsi funksiyalarını həyata keçirir, habelə əlilliyin müəyyən edilməsi və müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların yekun tibbi müayinəsi sahələrində fəaliyyət göstərir;

3.2. Agentlik İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi publik hüquqi şəxsin (bundan sonra - İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi) və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi publik hüquqi şəxsin (bundan sonra - Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi) hüquqi varisidir, onların hüquq və öhdəlikləri, habelə əmlakı (bu Fərmanın 3.3-cü və 3.4-cü bəndləri nəzərə alınmaqla) Agentliyə keçir;



3.3. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sığortaolunanların dərman və tibb vasitələri ilə təmin edilməsi ilə bağlı hüquq və öhdəlikləri Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinə keçir;

3.4. Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin əlilliyi olan şəxslərə reabilitasiya xidmətlərinin göstərilməsi ilə bağlı hüquq və öhdəlikləri, habelə tabeliyindəki reabilitasiya müəssisələri bütün əmlakı ilə birlikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinə (bundan sonra - Sosial Xidmətlər Agentliyi) keçir;

3.5. Agentliyin nizamnamə fondu bu Fərmanın 3.2-ci bəndinə uyğun olaraq ona keçən əmlak hesabına formalaşır;

3.6. Agentliyin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün 5 (beş) üzvdən - sədr və onun 4 (dörd) müavinindən ibarət İdarə Heyəti yaradılır;

3.7. Agentliyin fəaliyyəti dövlət büdcəsinin, icbari tibbi sığorta fondunun vəsaiti və nizamnaməsində müəyyən edilən digər mənbələr hesabına maliyyələşdirilir.

**4.** Agentliyin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. nizamnamənin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

4.1.2. idarəetmə orqanlarının yaradılması;

4.1.3. yenidən təşkil və ləğv edilməsi;

4.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

4.2.1. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsində nəzərdə tutulmuş qərarın qəbul edilməsi;

4.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə:

4.3.1. bu Fərmanın 4.1-ci və 4.2-ci bəndlərində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

**5.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. aşağıdakılarla bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

5.1.1. bu Fərmanın 1 - 3-cü hissələri nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi;

5.1.2. Agentliyin nizamnaməsinin layihəsi, o cümlədən nizamnamə fondunun miqdarı;

5.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**6.** Agentlik «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək:

6.1. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi bu Fərmanın 7.1-ci bəndi nəzərə alınmaqla öz fəaliyyətini davam etdirsinlər;

6.2. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin və Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin idarə olunması bu Fərmanın 7.1-ci bəndinə uyğun olaraq yaradılan komissiya tərəfindən həyata keçirilsin.

**7.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

7.1. bu Fərmanın 2-ci hissəsi nəzərə alınmaqla, həmin hissədə nəzərdə tutulan publik hüquqi şəxslərin təhvil-təslim işlərinin təşkili və Agentlik fəaliyyətə başlayanadək idarə edilməsi üçün rəhbəri əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini olmaqla komissiya yaradılmasını təmin etsin;

7.2. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin və Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin balansında olan əmlakın (bu Fərmanın 3.4-cü bəndi nəzərə alınmaqla) Agentliyin balansına verilməsi ilə bağlı üç ay müddətində zəruri tədbirlər görülməsini təmin etsin;

7.3. bu Fərmanın 3.4-cü bəndinə uyğun olaraq, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin tabeliyindəki reabilitasiya müəssisələrinin Sosial Xidmətlər Agentliyinin tabeliyinə verilməsini üç ay müddətində təmin etsin;

7.4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə Agentliyin dövlət qeydiyyatına alınması ilə bağlı «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş zəruri tədbirləri həyata keçirsin;

7.5. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 19 mart 2026-cı il*




## «Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyası»nın təsdiq edilməsi haqqında

### *Azərbaycan Respublikasının Qanunu*

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2015-ci il martın 25-də Santiaqo-de-Kompostela şəhərində imzalanmış "Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyası" Azərbaycan Respublikasının müvafiq bəyanatı ilə təsdiq edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 20 fevral 2026-cı il*

## C.Ə.Əliyevin «İstiqlal» ordeni ilə təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında tibb elminin və səhiyyənin inkişafında xüsusi xidmətlərinə görə Cəmil Əziz oğlu Əliyev «İstiqlal» ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 29 mart 2026-cı il*

## «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikasının Qanunu*

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** «Tibbi sığorta haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 4 (Cild I); 2024, № 11, maddə 1182, № 12 (II kitab), maddələr 1332,1348; 2025, № 1, maddə 16, № 3, maddə 218, № 8, maddə 743, № 11, maddə 1008; Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 297-VIIQD nömrəli Qanunu) 16-4.4-1-ci maddəsində «2026-cı» sözləri «2027-ci» sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan**
**Respublikasının Prezidenti**
*Bakı şəhəri, 24 fevral 2026-cı il*

# Milli Məclisin plenar iclaslarında səhiyyə məsələlərinə toxunulub

**Mart ayında Milli Məclisin yaz sessiyasında növbəti plenar iclaslar keçirilib.**




Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, ilk iclasda qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) 2025-ci ildə ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzəsi dinlənilib.

Məruzəni təqdim edən İnsan hüquqları üzrə müvəkkil Səbinə Əliyeva çıxışında digər məsələlərlə yanası, sağlamlıq hüququ barədə məqamlara da toxunub. O bildirib ki, 2025-ci ildə əhalinin sağlamlıq hüququnun effektiv şəkildə həyata keçirilməsi məqsədilə mühüm işlər görülüb. Ombudsman bu məqsədlə regionlarda ixtisaslaşdırılmış tibbi xidmətlərin əlçatanlığının təmin edilməsinin, ilkin səhiyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsinin əhəmiyyətini qeyd edib. O, şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə və onkoloji xəstələrə tibbi yardımın göstərilməsi, onların lazımi dərman preparatları ilə təmin edilməsi sahəsində görülən işlərdən söhbət açıb, təkliflər verib.

Səbinə Əliyeva həmçinin əlillik vəziyyətinin qiymətləndirilməsi məqsədilə bu prosesdə iştirak edən qurumlar arasında koordinasiyalı və qarışılıqlı etimad prinsipinə əsaslanan fəaliyyətin təmin olunmasının, qiymətləndirmə prosedurlarının sadələşdirilməsinin vacibliyindən danışıb.

Qeyd olunub ki, müasir informasiya texnologiyalarının istehlakçı hüquqlarına təsirinin davamlı monitorinqinin aparılmasına, qanunvericiliyin müasir tələblərə uyğunlaşdırılmasına, bu sahədə maarifləndirici materialların hazırlanmasına və hədəf qrupları üzrə birgə maarifləndirmə tədbirlərinin keçirilməsinə diqqət artırılmalıdır.

Sonra parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc çıxış edərək ombudsmanın illik məruzəsinin rəhbərlik etdiyi komitədə geniş müzakirə olunduğunu söyləyib. Komitə sədri hesabatda məhkəmə qərarlarının icrası ilə bağlı, narkomaniyaya qarşı mübarizədə daxili işlər orqanlarının peşəkar fəaliyyətinə dair, həmçinin sağlamlıq hüququnun, mənzil hüququnun təminatı və digər bu kimi məsələlərə geniş yer verildiyini diqqətə çatdırıb, bir sıra təkliflərini səsləndirib.

Ombudsmanın illik məruzəsi ətrafında müzakirələrin yekununda Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) 2025-ci ildə ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzəsinin nəzərə alınması ilə bağlı qərar layihəsi səsə qoyularaq qəbul edilib.

Milli Məclisin növbəti plenar iclasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı dinlənilib.

Spiker Sahibə Qafarova çıxışında vurğulayıb ki, 2025-ci ildə sosial siyasətə xüsusi diqqət yetirilib. Əhalinin rifahının yüksəldilməsi ilə bağlı proqramlar icra olunub, sosial müdafiə tədbirləri genişləndirilib, səhiyyə və təhsil sistemlərində təkmilləşdirmə işləri aparılıb.

Sonra Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatını təqdim edib. Baş nazir digər sahələrlə yanaşı, ölkəmizdə əhalinin sağlamlığının qorunması sahəsində də görülmüş işlərə toxunub. O, təhsil, səhiyyə və sosial müdafiəyə ayrılan vəsaitlərdən danışıb. Hökumətin hesabatında səhiyyə sahəsində əldə edilən uğurlar öz əksini tapıb. Bildirilib ki, əhalinin sağlamlığının daha etibarlı və keyfiyyətli qorunması istiqamətində yeni meyarlar hazırlanıb, bir sıra proqramlar icra olunub, icbari tibbi sığorta sisteminin tətbiqi müvəffəqiyyətlə davam etdirilib.

Plenar iclasda Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı ətrafında müzakirələrdən sonra hesabat səsə qoyularaq nəzərə alınıb.

Parlamentin növbəti plenar iclasında İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb. Təklif olunan dəyişikliklərin bir istiqaməti uşaq hüquqlarının və təhlükəsizliyinin təminatı ilə bağlıdır. Bu yaxınlarda qəbul olunmuş "Uşaq hüquqları haqqında" Qanunun tələblərindən irəli gələrək İnzibati Xətalar Məcəlləsinə 3 yeni maddənin əlavə edilməsi təklif olunur.

Belə ki, təhsil, tibb, mədəniyyət, sosial xidmət, penitensiar müəssisələrinin işçiləri və ya valideynlər tərəfindən uşaqda zorakılıq əlamətləri aşkar edildikdə bu barədə hüquq mühafizə orqanlarına məlumat verilməməsinə görə həm fiziki şəxslər, həm vəzifəli şəxslər üçün cərimələr müəyyən edilir. Eyni zamanda, müvafiq müəssisələrdə uşaqlar arasında davamlı təzyiqin və aqressiv davranışın qarşısının alınmamasına görə də cərimələr nəzərdə tutulur. Valideynlər və müvafiq işçilər tərəfindən tərbiyə məqsədilə uşağa qarşı cismani cəzanın, yəni fiziki və psixoloji zorakılığın tətbiq edilməsinə görə də cərimə müəyyən edilir.

Müzakirədən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

# Leyla Əliyeva Nərimanov Uşaq Klinik Xəstəxanasını ziyarət edib

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Respublika Pediatriya Mərkəzinin Nərimanov Uşaq Klinik Xəstəxanasını ziyarət edib.**





AZƏRTAC xəbər verir ki, ziyarət zamanı Leyla Əliyeva xəstəxanada müxtəlif diaqnozlarla stasionar müalicə alan uşaqların səhhəti ilə maraqlanıb, onların müalicə prosesi və yaradılmış şəraitlə yaxından tanış olub. O, həmçinin azyaşlı pasiyentlər və onların valideynləri ilə görüşüb, onlara mənəvi dəstək göstərib, uşaqlara hədiyyələr təqdim edib.

Səhiyyə naziri Teymur Musayev və TƏBİB-in İcraçı direktoru vəzifəsini müvəqqəti icra edən Anar İsrafilov Leyla Əliyevaya tibb müəssisəsinin fəaliyyəti, göstərilən ixtisaslaşmış tibbi xidmətlər və mövcud maddi-texniki baza barədə ətraflı məlumat veriblər.





Qeyd olunub ki, TƏBİB-in tabeliyində fəaliyyət göstərən Respublika Pediatriya Mərkəzinin Nərimanov Uşaq Klinik Xəstəxanası ölkədə uşaqlara endokrinologiya və allerqologiya sahələrində stasionar tibbi xidmət göstərən yeganə ixtisaslaşmış müəssisədir.

Müəssisədə müasir tibbi avadanlıqlardan istifadə olunmaqla diaqnostika və müalicə tədbirləri həyata keçirilir, pasiyentlərin sağlamlığının qorunması və bərpası istiqamətində kompleks yanaşma tətbiq olunur.

# Leyla Əliyeva Bakı Şəhər Narkoloji Mərkəzini ziyarət edib

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakı Şəhər Narkoloji Mərkəzini ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, Leyla Əliyevaya mərkəz barədə ətraflı məlumat verilib.

Bildirilib ki, Azərbaycanda ilk narkoloji tibbi müəssisə olan Bakı Şəhər Narkoloji Mərkəzinin əsası 1980-ci ildə qoyulub. Əvvəllər Bakı Şəhər Narkoloji Dispanseri kimi fəaliyyət göstərib.

Qeyd olunub ki, həmin dövrdə alkoqolizmlə mübarizə əsasında narkologiya psixiatriyadan ayrılanda narkoloji müəssisələrin yaradılmasına başlanılıb. Azərbaycanda ilk olaraq həmin narkoloji mərkəz açılıb.

2012-ci ildə dispanser Səhiyyə Nazirliyi tərəfindən əsaslı təmir edilərək istifadəyə verilib. Səhiyyə Nazirliyinin 2020-ci il 11 avqust tarixli qərarı ilə «Bakı Şəhər Narkoloji Dispanseri» əsasında «Bakı Şəhər Narkoloji Mərkəzi» publik hüquqi şəxsi yaradılıb. Mərkəz 16 otaqdan ibarətdir: qeydiyyat, qəbul, 7 həkim, manipulyasiya, 6 inzibati otaq.





Paytaxtın 12 rayonuna xidmət edən mərkəzin 18 həkim, 25 tibb bacısı və 27 digər vəzifələrdə çalışan əməkdaşı var. Mərkəz gün ərzində 200-300 nəfərə qədər vətəndaşa xidmət göstərmək gücündədir.

Bakı Şəhər Narkoloji Mərkəzində paytaxt üzrə 17 557 nəfər qeydiyyatdadır, onlardan 1 416 nəfər alkoqolizmdən, 14 753 nəfər narkotik maddələrin qəbulundan yaranan psixi və davranış pozuntularından, 1 388 nəfər toksiki maddələrin qəbulundan yaranan psixi və davranış pozuntularından əziyyət çəkir.

Gün ərzində narkoloji asılılıqdan əziyyət çəkən 20 nəfər mərkəzə müraciət edir, nadir hallarda alkoqolizm asılılığına görə müraciət daxil olur. Kəskin vəziyyətləri olan alkoqolizm halları stasionara yönləndirilir. Yüngül vəziyyətdə olan alkoqolizm halları isə mərkəzdə ambulator müalicə edilir.

Bakı Şəhər Narkoloji Mərkəzində sifilis, İİV, Hepatit B və C-nin müayinəsi də aparılır.

Mərkəz üçün yeni yerin ayrıldığı, yaxın gələcəkdə həmin məkana köçürüləcəyi də diqqətə çatdırılıb.

Leyla Əliyeva qeydiyyat, qəbul, həkim, baş tibb bacısı, manipulyasiya otaqlarına baş çəkib, mərkəzin tibbi personalı ilə həmsöhbət olub, onlarla şəkil çəkdirib.

# Leyla Əliyeva və Arzu Əliyeva Pediatriya Mərkəzində olublar





**Leyla Əliyeva və Arzu Əliyeva «Referans Medical Group»un tərkibində fəaliyyət göstərən «Leyla Medical Center»in Pediatriya Mərkəzində olublar.**

AZƏRTAC xəbər verir ki, ziyarət zamanı qonaqlar Mərkəzin gündüz stasionarında müalicə alan uşaqlara baş çəkib, onların səhhəti və müalicə prosesi ilə maraqlanıblar.

Uşaqlarla səmimi söhbət edən Leyla Əliyeva və Arzu Əliyeva körpələrə müxtəlif hədiyyələr təqdim edib, onlara xoş anlar yaşadıblar.

# «Səhiyyə beynəlxalq əməkdaşlıq platformasına çevrilməlidir»

## *ÜST-nin Baş direktoru Bakıda ölkələrə çağırış etdi*

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesus XIII Qlobal Bakı Forumunun açılış mərasimində çıxış edib.**

AZƏRTAC xəbər verir ki, ÜST rəhbəri Azərbaycan Prezidenti İlham Əliyevə, Azərbaycan hökumətinə, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərilən qonaqpərvərliyə görə təşəkkür edib.

«Səhiyyə elə bir sahədir ki, parçalanmış dünyamızda ideologiya və ayrılıqlardan asılı olmayaraq ölkələr ümumi təhdidlərə qarşı birgə həllər tapmaq üçün məhz burada bir araya gəlməlidirlər», - deyə Tedros Gebreyesus vurğulayıb. ÜST rəhbəri dünya üzrə statistik rəqəmləri açıqlayıb: «1945-ci ildə orta ömür uzunluğu təxminən 45 il idi. 2025-ci ildə isə bu göstərici 73,5 ilə çatıb. Bu isə təxminən 28,5 illik artım deməkdir. Bu, sülh, inkişaf və sağlamlıq sahəsində əldə olunan nailiyyətlərin nəticəsidir».

Baş direktor bildirib ki, bu gün dünyada uşaqların 80 faizindən çoxu qızılca, tetanus, difteriya və pnevmoniya kimi ölümcül xəstəliklərə qarşı peyvənd olunur. Halbuki əvvəllər bu göstərici cəmi 5 faiz idi. Son 25 ildə isə İİV/QİÇS, malyariya və vərəm səbəbindən ölüm halları əhəmiyyətli dərəcədə azalıb. Ana və uşaq ölümündə də ciddi şəkildə azalma var. Beləliklə, analar, uşaqlar və ailələr üçün daha təhlükəsiz bir dünya yaranıb.

«Pandemiyalar sərhəd tanımır və qısa zamanda bütün dünyaya yayılır. Bununla yanaşı, sərhəd tanımayan başqa problemlər də var. Məsələn, iqlim böhranı. Əgər bu kimi qlobal problemlərlə mübarizədə birlikdə fəaliyyət göstərməsək, bu vəziyyət ciddi fəlakətlərlə nəticələnə bilər», - deyə Tedros Adhanom Gebreyesus bildirib.

ÜST rəhbəri ölkələri gələcək pandemiyalara hazırlıq və qlobal əməkdaşlığın gücləndirilməsinə daha çox diqqət yetirməyə çağırıb.

AZƏRTAC-ın BMT xəbər xidmətinə istinadən verdiyi məlumata görə, o qeyd edib ki, 2025-ci ildə hərbi xərclər 2,7 trilyon dollara çatıb ki, bu da 2030-cu ilə qədər aclığın aradan qaldırılması üçün lazım olan məbləğdən 30 dəfə çoxdur.




O, həmçinin «görünməz düşmən» hücumuna qarşı durmağa hazır olmağın vacibliyinə diqqət çəkib. Bu, 20 milyon insanın - müasir tarixdəki istənilən müharibədən daha çox insanın ölümünə səbəb olan və qlobal iqtisadiyyata 10 trilyon dollardan çox ziyan vurduğu təxmin edilən COVID-19 kimi daha bir pandemiyaya aiddir.

ÜST rəhbəri vurğulayıb ki, dünya dərs çıxarmadan tez-tez bir böhrandan digərinə keçir. Pandemiyanın dağıdıcı nəticələrinə baxmayaraq, ölkələr sağlamlıq təhdidlərindən qorunmaqdan çox, hərbi xərclərə daha artıq pul xərcləyir.

«Bununla belə, COVID-19 pandemiyasının göstərdiyi kimi, qloballaşan dünyada səhiyyə təhlükəsizliyi milli problemdir», - deyə Gebreyesus vurğulayıb.



O əlavə edib: «Virusların vizaya ehtiyacı yoxdur; patogenlər sərhədlərə hörmət etmir. Dezinformasiya diplomatiyadan daha sürətli yayılır».

ÜST rəhbərinin sözlərinə görə, səhiyyə beynəlxalq əməkdaşlıq platformasına çevrilməlidir.

«Parçalanmış və bölünmüş dünyada səhiyyə ölkələrin ortaq təhdidlərə birgə həllər tapmaq üçün ideoloji fərqləri aşaraq birlikdə işləyə biləcəyi və tədbirlər görməli olduğu azsaylı sahələrdən biridir», - deyə o bildirib.

Gebreyesus xatırladıb ki, ÜST-nin üzv dövlətləri gələcək pandemiyalara qlobal hazırlığı gücləndirmək üçün işlərini davam etdirirlər. Keçən il onlar pandemiyalar haqqında müqavilə imzalayıblar. Bu sənəd təsdiqləndikdən sonra onun ictimai səhiyyə təhlükəsizliyinin gücləndirilməsi üçün mühüm beynəlxalq hüquqi alətə çevriləcəyi gözlənilir.

Ölkələr həmçinin potensial təhlükəli virusların sürətli aşkarlanmasını, vaksinlərə, dərmanlara və diaqnostikaya bərabər çıxışı təmin etməli olan əlavə patogenlərin paylaşılması, habelə faydaların bölüşdürülməsi mexanizmi barədə danışıqlar aparır.

ÜST rəhbərinin sözlərinə görə, ölkələr bu prosesdə xeyriyyə məqsədləri ilə deyil, müşahidə, erkən xəbərdarlıq və tibbi ləvazimatlara çıxış sahəsində əməkdaşlığın onların maraqlarına uyğun olduğu üçün iştirak edir. «Çoxtərəfli əməkdaşlığın mahiyyəti budur. O, fərqləri aradan qaldırmaq deyil, ortaq riskləri idarə etmək mexanizmidir», - deyə o vurğulayıb.

Gebreyesus onu da qeyd edib ki, beynəlxalq əməkdaşlıq sistemi hazırda ciddi çətinliklərlə üzləşir. Onun sözlərinə görə, ÜST ən böyük donorunun maliyyələşdirməni dayandırması səbəbindən mürəkkəb islahatlar və yenidən istiqamətləndirmə dövrünü yaşayır. «Əminəm ki, ÜST bu vəziyyətdən daha güclü çıxacaq, əsas mandatına daha aydın şəkildə diqqət yetirəcək, daha müstəqil və dünya xalqlarına və ölkələrinə xidmət etməyə qadir təşkilat olacaq», - deyə təşkilatın rəhbəri qeyd edib.

«Nəticə etibarilə, biz hamımız insanıq, eyni planetdə yaşayırıq, eyni DNT-ni paylaşırıq və oxşar təhdidlərlə üzləşirik», - deyən Baş direktor ölkələr və beynəlxalq qurumlar arasında etimadı bərpa etməyin gələcək böhranlara effektiv cavab vermək üçün əsas olaraq qaldığını vurğulayıb.



Səhiyyə naziri Teymur Musayev ölkədə kadr potensialının inkişafına yönəlmiş təşəbbüslər çərçivəsində IV «Yüksəliş» müsabiqəsinin qalibi Ayaz Məmmədovla növbəti dəfə görüşüb.

# Səhiyyə naziri «Yüksəliş» müsabiqəsi qalibinin təklif və təşəbbüslərini dinləyib

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, görüş zamanı səhiyyə sektorunda aparılan islahatlar, idarəetmədə innovativ yanaşmalar, rəqəmsallaşma prosesi və insan resurslarının inkişafı məsələləri diqqətə çatdırılıb. Nazir müsabiqə qalibinin təklif və təşəbbüslərini dinləyərək, «Yüksəliş» müsabiqəsi qaliblərinin peşəkar inkişafına dəstəyin dövlət siyasətinin əsas prioritetlərindən biri olduğunu vurğulayıb.

Teymur Musayev bildirib ki, «Yüksəliş» müsabiqəsi ölkədə gənc və perspektivli kadrların üzə çıxarılması, onların dövlət idarəçiliyində fəal iştirakının təmin olunması baxımından mühüm platformadır. O, səhiyyə sahəsində həyata keçirilən yeniliklərdə peşəkar və təşəbbüskar gənclərin rolunun əhəmiyyətini qeyd edib.

Görüş çərçivəsində səhiyyə sistemində idarəetmənin təkmilləşdirilməsi, tibbi xidmətlərin keyfiyyətinin artırılması və innovativ həllərin tətbiqi ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

Sonda nazir «Yüksəliş» müsabiqəsinin qalibinə gələcək fəaliyyətində uğurlar arzulayıb.

# ÜST-nin Baş direktoru: Vərəmlə mübarizə sahəsində Azərbaycan ilə əməkdaşlıq əhəmiyyətlidir

**Azərbaycanda səfərdə olan Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesus səhiyyə naziri Teymur Musayevlə birlikdə nazirliyin Professor Yevsey Gindes adına Respublika Uşaq və Yeniyetmələr üçün Vərəm və Tənəffüs Orqanlarının Xəstəlikləri Sanatoriyasını ziyarət ediblər.**







Bu barədə Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən xəbərdə bildirilir ki, səhiyyə naziri Teymur Musayev müəssisənin fəaliyyəti, uşaqlar və yeniyetmələr arasında vərəm və digər tənəffüs orqanları xəstəliklərinin profilaktikası, erkən diaqnostikası, müalicəsi və reabilitasiyası istiqamətində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verib.

Nazir qeyd edib ki, Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, Bakıda Professor Y.Gindes adına Respublika Uşaq və Yeniyetmələr üçün Vərəm və Tənəffüs Orqanlarının Xəstəlikləri Sanatoriyasının yeni binası tikilib. Sanatoriyada pasiyentlərin kompleks müalicəsi üçün zəruri tibbi və sosial reabilitasiya xidmətləri təşkil olunub, müasir tibbi yanaşmalar və profilaktik proqramlar tətbiq edilir.

Sonra müəssisənin müalicə və diaqnostika bölmələri, laboratoriya və reabilitasiya sahələri ilə tanışlıq olub. Bildirilib ki, sanatoriyada müasir tibbi avadanlıqlardan istifadə edilir, pasiyentlərin sağlamlığının bərpası və sosial adaptasiyası üçün kompleks tədbirlər həyata keçirilir.

ÜST-nin Baş direktoru Tedros Adhanom Gebreyesus sanatoriyada yaradılmış şəraiti, uşaqların müalicəsi və reabilitasiyası istiqamətində görülən işləri yüksək qiymətləndirib. O, qlobal səviyyədə vərəmlə mübarizənin mühüm prioritetlərdən biri olduğunu qeyd edərək, bu sahədə ÜST ilə Azərbaycan arasında əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

Qonaqlar müəssisədə müalicə alan uşaqlarla görüşüb, onların müalicə və reabilitasiya şəraiti ilə yaxından tanış olublar.

Sonda ÜST-nin Baş direktoru sanatoriyanın kollektivi ilə səmimi görüş keçirib, onların fəaliyyəti ilə yaxından tanış olub və görülən işləri yüksək qiymətləndirərək gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

# Əlaqələndirmə Qərargahının növbəti iclası Xocavənd şəhərində keçirilib

**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Xocavənd şəhərində Qərargahın növbəti iclası keçirilib.**





Səhiyyə Nazirliyi mətbuat xidmətinin verdiyi məlumata görə, iclasda çıxış edən Samir Nuriyev işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış prosesinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin və ölkənin uzunmüddətli inkişaf strategiyasının əsas istiqamətlərindən biri olduğunu bildirib. Deyib ki, bu proses yalnız ərazilərin fiziki baxımdan bərpasını deyil, həmin torpaqlarda həyatın yenidən qurulmasını, dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunmasını və keçmiş məcburi köçkünlərin doğma yurdlarına ləyaqətli qayıdışını nəzərdə tutan kompleks yanaşmanı əhatə edir.

Qərargah rəhbərinin sözlərinə görə, işğaldan azad edilmiş ərazilərdə son illər həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işlərində əsas prioritet baza infrastrukturunun yaradılması olub. Elektrik enerjisi, qaz və su təchizatı infrastrukturunun yenidən qurulması, yolların, körpülərin və tunellərin inşası regionda həyatın bərpası üçün ilkin zəruri şəraiti formalaşdırıb. Hazırkı mərhələdə isə dövlət tərəfindən ayrılan resursların mühüm hissəsi yaşayış fondunun genişləndirilməsinə, fərdi və çoxmənzilli evlərin tikintisinə və bərpasına yönəldilir. Bununla yanaşı, məktəblər, uşaq bağçaları, tibb məntəqələri və dövlət xidmətləri mərkəzləri kimi sosial obyektlərin fəaliyyətlərinin təşkili paralel şəkildə həyata keçirilir. Qeyd olunub ki, bu yanaşma öz doğma torpaqlarına qayıdan keçmiş məcburi köçkünlərin ilk gündən normal həyat şəraitinə sürətli adaptasiyasına imkan verir.

İşğaldan azad edilmiş ərazilərdə bu günədək ümumilikdə 41 yaşayış məntəqəsinin tikilərək və bərpa edilərək istifadəyə verildiyini, həmin ərazilərə keçmiş məcburi köçkünlərin qayıdışının təmin olunduğunu vurğulayan qərargah rəhbəri görülən işlər nəticəsində hazırda dövlət və özəl sektorlarda işləyənlər, həmçinin təhsil alanlar da daxil olmaqla, işğaldan azad edilmiş ərazilərdə ümumilikdə 80 mindən çox insanın yaşadığını və fəaliyyət göstərdiyini iclas iştirakçılarının diqqətinə çatdırıb. Qeyd edilib ki, qarşıdakı dövrdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri nəticəsində köç prosesi daha da sürətlənəcək və Böyük Qayıdış Proqramının miqyası genişlənəcək.

Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə layihələrin icrası Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində həyata keçirilir. Proqramda nəzərdə tutulmuş tədbirlər ardıcıl şəkildə icra olunur, bu isə qarşıya qoyulan məqsədlərə mərhələli şəkildə nail olunmasına və bərpa-quruculuq prosesinin uğurla davam etdirilməsinə imkan yaradır.

Samir Nuriyev vurğulayıb ki, məskunlaşmanın dayanıqlılığı birbaşa məşğulluq imkanlarının yaradılması ilə bağlıdır. Bu baxımdan, yeni iş yerlərinin açılması, kənd təsərrüfatı, xidmət sektoru, istehsal, tikinti və logistika sahələrində fəaliyyət imkanlarının genişləndirilməsi, həmçinin sahibkarlığın təşviqi, investorların cəlb olunması və dəstək mexanizmlərinin tətbiqi mühüm əhəmiyyət daşıyır.

Qərargah rəhbəri tarixi, mədəni və dini abidələrin bərpasının Böyük Qayıdış prosesinin mühüm istiqamətlərindən biri olduğunu qeyd edərək, bunun milli-mədəni irsin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından xüsusi əhəmiyyət daşıdığını bildirib.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin fəaliyyəti, habelə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində görülən işlər barədə məlumatlar təqdim olunub. Məskunlaşma, iqtisadi fəallığın artırılması, sahibkarlığın inkişafı və mədəni irsin bərpası istiqamətində aparılan işlərə dair məruzələr dinlənilib.

İclasın yekununda Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş strateji vəzifələrin səmərəli icrası üçün zəruri tədbirlərin vaxtında həyata keçirilməsinin vacibliyi vurğulanıb. Qeyd olunub ki, hər bir məsələ üzrə konkret addımlar atılmalı və verilmiş tapşırıqlar operativ şəkildə icra olunmalıdır.

# Səhiyyə Nazirliyində işğaldan azad olunmuş ərazilərdə tibbi xidmətin təşkili müzakirə olunub

**Səhiyyə Nazirliyində «İşğaldan azad edilmiş ərazilərdə tibbi xidmətin təşkili» işçi qrupunun növbəti iclası keçirilib.**



Nazirliyin mətbuat xidmətinin verdiyi məlumata görə, işçi qrup Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası»nın və «Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı»nın hazırlanmasına dair tapşırıqların icrası ilə bağlı olaraq, Səhiyyə Nazirliyinin müvafiq Əmri ilə yaradılıb.

İşçi qrupun səhiyyə naziri Teymur Musayevin sədrliyi və aidiyyəti üzrə dövlət qurumlarının iştirakı ilə keçirilən növbəti iclasında «Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı» çərçivəsində həmin ərazilərdə təşkil olunmuş tibbi xidmət və mövcud vəziyyətlə bağlı aparılmış monitorinqlərin və qiymətləndirmənin cari vəziyyəti müzakirə olunub.

Bununla bağlı, iclasda Səhiyyə Nazirliyi tərəfindən aparılmış təhlil, ictimai səhiyyə, təcili və təxirəsalınmaz tibbi yardım, ilkin səhiyyə xidməti və ixtisaslaşdırılmış tibbi xidmətin təşkili ilə bağlı Strateji Baxışa dair təqdimat edilib.

İşğaldan azad edilmiş ərazilərdə «Böyük Qayıdışa dair II Dövlət Proqramı» çərçivəsində məskunlaşmaya uyğun olaraq, əhaliyə göstərilən tibbi xidmətlərin daha da təkmilləşdirilməsi, keyfiyyətinin yüksəldilməsi və əlçatanlığının təmin edilməsi, həmçinin aidiyyəti qurumlar arasında koordinasiyanın gücləndirilməsi istiqamətində fikir mübadiləsi aparılıb. Eyni zamanda, mülki və hərbi tibbi infrastrukturun səmərəli istifadəsi məqsədilə çarpayı fondunun optimallaşdırılması, əhalinin dərman vasitələri ilə təminatında logistik zəncirin qurulması, əhali və tibb işçiləri arasında psixo-sosial dəstək işinin aparılması və tibbi savadlılığın artırılması məsələlərinə də toxunulub.

Aparılan monitorinqlərin nəticəsinə əsaslanaraq, işğaldan azad edilmiş ərazilərdə tibb müəssisələrinin fəaliyyətinin bərpası, səyyar tibbi xidmətlərin genişləndirilməsi, tibb müəssisələrinin kadrlarla təmin olunması, tibbi heyətin fəaliyyətinin stimullaşdırılması və infrastrukturun inkişafı istiqamətində görülən işlər və qarşıda duran vəzifələr ətraflı təhlil edilib.

Səhiyyə naziri Teymur Musayev çıxışında qeyd edib ki, Böyük Qayıdış Proqramının səhiyyə komponenti prioritet sahələrdən biridir və əhalinin sağlamlığının qorunması, keyfiyyətli tibbi yardımın fasiləsiz təmin olunması dövlət siyasətinin əsas istiqamətlərindəndir. İşçi qrupu bu sahədə koordinasiyanı gücləndirmək və effektiv həll yolları tapmaq məqsədilə müntəzəm olaraq fəaliyyət göstərir.

Sonda qarşıda duran vəzifələrin icrası ilə bağlı növbəti addımlar müəyyənləşdirilib və müvafiq tapşırıqlar verilib.

# Azərbaycanda dərman bazarına necə nəzarət edilir?

**Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzinin (AEM) direktoru Murad Süleymanov mərkəzin əsas fəaliyyət istiqamətləri, dərman vasitələrinin keyfiyyətinə nəzarət prosesi, saxta və keyfiyyətsiz dərmanların qarşısının alınması üçün yaradılan yeni mexanizmlər, rəqəmsallaşma və elektron sistemlərin ekspertiza prosesinə inteqrasiyası, həmçinin regionlarda dərman təminatı və keyfiyyətə nəzarət sahəsindəki vəziyyət ilə bağlı AZƏRTAC-a müsahibə verib.**



**- Murad müəllim, rəhbərlik etdiyiniz qurumun əsas fəaliyyət istiqamətləri hansılardır və bu istiqamətlər səhiyyə sisteminə necə töhfə verir?**

- Analitik Ekspertiza Mərkəzi Səhiyyə Nazirliyinin təşəbbüsü ilə dərman vasitələrinin keyfiyyəti, təhlükəsizliyi və effektivliyi üzərində dövlət nəzarətini gücləndirmək məqsədilə 2007-ci ildə yaradılıb. Mərkəzin fəaliyyəti bu sahəni tənzimləyən qanunvericiliyə əsaslanır. Hazırda mərkəzdə 22 şöbə, 3 sektor və müxtəlif istiqamətləri əhatə edən komissiyalar, eləcə də Elmi Şura mövcuddur. Bundan əlavə, Analitik Ekspertiza Mərkəzi Azərbaycan Tibb Universiteti ilə əməkdaşlıq çərçivəsində tədris və təlim bazası kimi də fəaliyyət göstərir.

Mərkəzin əsas fəaliyyət istiqamətlərinin ən vaciblərindən biri ölkəyə gətirilən və istifadəyə təqdim olunan dərman və tibb vasitələrinin ekspertizasını həyata keçirməkdir. Bu proses zamanı həmin məhsulların insan sağlamlığı üçün təhlükəsiz olub-olmaması, keyfiyyət standartlarına uyğunluğu və effektivliyi yoxlanılır. Ekspertizanın nəticələrinə əsasən dərman və tibb vasitələrinin ölkəyə idxalına icazə verilir.

Bununla yanaşı, AEM təqib və izləmə sistemi vasitəsilə dərman vasitələrinin elektron nəzarətini təşkil edir. Bu sistem sayəsində dərmanların ölkəyə daxil olduğu andan aptekə və ya tibb müəssisəsinə çatana qədər dövriyyəsi izlənilə bilir ki, bu da saxta və ya keyfiyyətsiz məhsulların dövriyyəsinin qarşısının alınmasına kömək edir.

Mərkəz həmçinin əczaçılıq və özəl tibb müəssisələrinin lisenziyalaşdırılması prosesində iştirak edir. Bu zaman müəssisələrin əhaliyə keyfiyyətli xidmət göstərə bilməsi üçün lazımi tibbi avadanlıqlara və ixtisaslı tibbi heyətə malik olub-olmadığı qiymətləndirilir. Özəl tibb müəssisələri fəaliyyətlərini «Özəl tibb fəaliyyəti haqqında» və «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikasının qanunlarına uyğun şəkildə qurmalıdır. Bu müəssisələrin fəaliyyətinin qanunvericiliyin tələblərinə uyğunluğunun müəyyən edilməsi məqsədilə lisenziyalaşdırma mərhələsində Səhiyyə Nazirliyinin rəyi tələb olunur.

Yalnız normativ hüquqi aktların tələblərinə cavab verən, müvafiq təchizata və ixtisaslı tibbi heyətə malik olan tibb müəssisələrinin fəaliyyətinə icazə verilir. Sonrakı mərhələdə isə bu fəaliyyətin davamlı olaraq uyğunluğunu təmin etmək məqsədilə mütəmadi monitorinqlər və yoxlamalar həyata keçirilir.

Mərkəzin təşəbbüsü ilə keçirilən yoxlamalarla yanaşı, vətəndaşların şikayətləri, dövlət qurumlarının müraciətləri və media vasitələrində yayımlanan məlumatlar əsasında da araşdırmalar aparılır.

Özəl tibb müəssisələrinə fəaliyyətlərinin qanunvericiliyə uyğun təşkili ilə bağlı tövsiyələr və xəbərdarlıqlar mərkəz tərəfindən yazılı şəkildə və təlimlər vasitəsilə təqdim edilir. Bu tövsiyələrin icra olunub-olunmadığını müəyyən etmək üçün plandankənar yoxlamalar həyata keçirilir. Qanunvericiliyin tələblərini dəfələrlə pozan və insan həyatı üçün real təhlükə yaradan tibb müəssisələrinin fəaliyyətinin dayandırılması barədə qərar qəbul edilir və bu barədə aidiyyəti dövlət qurumuna müraciət ünvanlanır.

Mərkəzin fəaliyyət istiqamətlərindən biri də bioloji aktiv qida məhsullarının ekspertizasıdır. Bu proses zamanı həmin məhsulların tərkibinin dərman vasitələri ilə eyni olub-olmaması və eyni dozada maddələr daşıyıb-daşımadığı araşdırılır.

**- Dərman vasitələrinin keyfiyyətinə nəzarət prosesi necə həyata keçirilir?**

- Dövriyyəyə çıxarılmadan öncə dərman vasitəsinin keyfiyyətinin yoxlanılması çox vacib prosesdir. «Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının Qanununa görə, dərman vasitəsi ilkin olaraq dövlət qeydiyyatı prosedurundan keçməlidir. Yəni dərman vasitəsi qanunvericiliyə uyğun olaraq müvafiq ekspertizalardan keçirilərək Azərbaycan Respublikasında Dövlət Qeydiyyatına alınır, dərman vasitəsinə qeydiyyat vəsiqəsi verilir və Dərman Vasitələrinin Dövlət Reyestrinə daxil edilir. Yalnız bundan sonra həmin dərmanın ölkəyə idxalına, ölkədə istehsalına və istifadəsinə icazə verilir. Dərman vasitəsi Dövlət Qeydiyyatına alındıqdan sonra ölkəyə hər dəfə idxal olunan zaman Analitik Ekspertiza Mərkəzinin Tibb və əczaçılıq vasitələrinin ekspertizası və keyfiyyətinə nəzarət laboratoriyasında müvafiq ekspertizalar aparıldıqdan sonra ona sertifikat verilir.

Ölkəyə idxal olunan hər bir dərman vasitəsinin seriyası laboratoriya şəraitində xüsusi yoxlamalardan keçirilir. Bu yoxlamalar dərman vasitəsi dövlət reyestrində qeydiyyatdan keçərkən istehsalçı tərəfindən təqdim edilən normativ sənədlərə və keyfiyyət sertifikatlarında göstərilən məlumatlara əsasən aparılır.

Laboratoriyada aparılan sınaqlar zamanı dərman vasitəsinin tərkibi və keyfiyyəti bir neçə mühüm göstərici üzrə qiymətləndirilir. Məsələn, dərmanın tərkibində olan təsiredici maddənin düzgünlüyü və miqdarı, tərkibində qarışıq maddələrin olub-olmaması və ya hansı miqdarda olduğu, həmçinin onun fiziki-kimyəvi və mikrobioloji göstəricilərinin müəyyən edilən standartlara uyğunluğu yoxlanılır.

**- Saxta və keyfiyyətsiz dərmanların qarşısının alınması üçün hansı mexanizmlər mövcuddur?**

- Mövcud qanunvericiliyə əsasən, dövlət reyestrində qeydiyyatdan keçməyən, mənşəyi məlum olmayan və ya keyfiyyət göstəriciləri müəyyən edilmiş standartlara uyğun olmayan dərman vasitələrinin ölkəyə gətirilməsi və satışı qadağandır. Bu səbəbdən Analitik Ekspertiza Mərkəzinin laboratoriyasında ölkəyə idxal olunan dərman vasitələrindən götürülmüş nümunələr xüsusi sınaqlardan keçirilir. Yoxlamalar zamanı mütəxəssislər istehsalçı tərəfindən təqdim olunan sınaq üsullarına və dərmanın keyfiyyət sertifikatlarında göstərilən məlumatlara əsaslanırlar.

Laboratoriya müayinəsi zamanı dərman vasitəsinin hər hansı keyfiyyət göstəricisi normativ tələblərə uyğun gəlməzsə, həmin dərmanın ölkəyə idxalına və satışına icazə verilmir və o, dövriyyəyə buraxılmır.

Beləliklə, həyata keçirilən bu nəzarət mexanizmləri sayəsində saxta və ya keyfiyyətsiz dərman vasitələrinin ölkəyə idxalının və əhalinin istifadəsinə təqdim edilməsinin qarşısı alınır.

Həmçinin qeyd etmək vacibdir ki, belə dərman vasitələrinin dövriyyəsinin qarşısının alınması üçün ən effektiv yollardan biri də əczaçılıq müəssisələrində yoxlamaların keçirilməsidir. Bunun üçün qanunvericiliyə uyğun olaraq plan üzrə (növbəti) və daxil olan şikayət, məlumat və müraciətlər əsasında plandankənar (növbədənkənar) yoxlamalar keçirilir.

Yoxlamalar qanunvericilikdə göstərilən müəyyən dövriliklə keçirilir və bu zaman müəssisənin risk qrupu nəzərə alınır. Belə ki, plan üzrə yoxlamaların aparılması dövriliyi qanunvericiliyə görə, yüksək risk qrupuna aid edilən sahibkara münasibətdə ildə bir dəfədən çox olmayaraq, orta risk qrupuna aid edilən sahibkara münasibətdə iki ildə bir dəfədən çox olmayaraq, aşağı risk qrupuna aid edilən sahibkara münasibətdə isə üç ildə bir dəfədən çox olmayaraq dəyişir. Keçirilən nəzarət yoxlamaları nəticəsində nöqsanlar aşkarlanan əczaçılıq müəssisələrinin sahibləri barədə qanunvericiliyə müvafiq tədbirlər görülür.

Qeyd etdiyim kimi, plan üzrə yoxlamaların təşkili və aparılması məqsədilə əczaçılıq müəssisələri yüksək, orta və aşağı risk qruplarına bölünür. Müəssisələrin risk qrupları üzrə bölgüsü risk qruplarının müəyyənləşdirilməsi meyarları əsasında yoxlayıcı orqan tərəfindən onun nəzarət sahəsinə uyğun aparılır.

Həmçinin saxta və keyfiyyətsiz dərmanların qarşısının alınması üçün Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx əməkdaşlıq edilir. Vaxtlı-vaxtında dərman vasitələri barədə xəbərdarlıqlar daxil olur. Həmin dərmanların ölkə ərazisində dövriyyədə mövcudluğu araşdırılır, müvafiq tədbirlər görülür. Digər tərəfdən, saxta və keyfiyyətsiz dərmanların müəyyən olunması istiqamətində bir sıra ölkələrlə anlaşma memorandumu imzalanıb. Digər ölkələrin ərazisində müəyyən olunmuş saxta və keyfiyyətsiz dərman vasitələri barədə məlumat AEM-ə daxil olur.

**- Bu il dərman bazarında aparılan yoxlamaların statistik göstəriciləri barədə nə deyə bilərsiniz?**

- 2026-cı il ərzində əczaçılıq müəssisələrində 147 nəzarət yoxlaması keçirilib. Bunlardan 109-u plan üzrə (növbəti), 38-i plandankənar (növbədənkənar) yoxlama olub. Yoxlamalar nəticəsində 39 əczaçılıq müəssisəsində nöqsanlar aşkarlanıb, 72 adda, 199 qutu dərman vasitəsi satışdan kənarlaşdırılıb. Bunlar dövlət qeydiyyatı olmayan, düzgün saxlanma şəraitinə riayət edilmədən saxlanan və istifadə müddəti bitmiş dərmanlar olub. Nöqsanlar aşkarlanan əczaçılıq müəssisələrinin sahibləri barədə İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri üzrə protokollar tərtib edilib.

**- Rəqəmsallaşma və elektron sistemlər ekspertiza prosesinə necə inteqrasiya olunub?**

- Ümumiyyətlə, demək olar ki, mərkəz tərəfindən həyata keçirilən və ya nəzarət olunan bütün iş proseslərinin icrasına bu və ya digər qaydada elektron sistemlər tətbiq edilib və bu proseslərin hər biri müəyyən səviyyədə rəqəmsallaşdırılıb.

Belə ki, hazırda dərman vasitələrinin dövlət reyestrinin aparılması, ekspertiza prosesinin mərhələləri, qüvvədə olan qeydiyyat vəsiqələrinin siyahısı, burada yer alan zəruri məlumatlar elektronlaşmış sistemdə yerləşdirilir və izlənilməsi təmin edilir. Həmçinin bu məlumatlar mərkəzin saytında yer alan müvafiq dərman vasitələri bölməsinə də inteqrativ qaydada yerləşdirilir.

*(Davamı səhifə 9-da)*

# Azərbaycanda uşaq və yeniyetmələrin vərəmlə xəstələnmə göstəriciləri aşağı düşüb

**Hər il martın 24-ü dünya birliyi tərəfindən Ümumdünya Vərəm Günü kimi qeyd olunur. Bu tarix 1882-ci ildə alman mikrobioloqu Robert Koxun vərəm törədicisini kəşf etməsinin elan olunduğu günlə bağlıdır. Alim bu kəşfinə görə 1905-ci ildə tibb üzrə Nobel mükafatına layiq görülüb.**






Vərəmlə Mübarizə Günü rəsmi olaraq 1982-ci ildə - Kox çöpünün kəşfinin 100 illiyində Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və Vərəm və Ağciyər Xəstəlikləri əleyhinə Beynəlxalq Birlik (IUATLD) tərəfindən təsis edilib. 1993-cü ildə ÜST vərəm üzrə milli fövqəladə vəziyyət elan edərək, bu tarixin beynəlxalq əhəmiyyətini artırıb. 1998-ci ildən bu gün BMT-nin rəsmi dəstəyini alır.

Ümumdünya Vərəm Gününün rəsmi simvolu olan ağ çobanyastığı təmiz nəfəs və sağlamlığın rəmzidir.

Səhiyyə Nazirliyi Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru İradə Axundova AZƏRTAC-a bildirib ki, hazırda Azərbaycanda vərəm xəstəliyinin aşkarlanması üçün ən müasir laborator və molekulyar diaqnostika üsullarından istifadə olunur. O cümlədən, sürətli molekulyar testlər vasitəsilə həm vərəm bakteriyasını, həm də dərmanlara davamlılıq hallarını qısa müddətdə müəyyən etmək mümkündür. Onun sözlərinə görə, bu, xəstələrə daha düzgün və fərdi müalicə sxemlərinin seçilməsinə imkan yaradır: «Artıq statistik göstəricilərdə müsbət dəyişikliklər müşahidə olunur. Azərbaycanda vərəmlə xəstələnmə dinamikası 2015-ci ildə 100 min əhalidə 41,1 olduğu halda, 2025-ci ildə bu rəqəm 21,5 olub. Xəstələrin üçdə ikisi kişi, üçdəbiri qadınlardır.

Azərbaycanda ilkin ağciyər vərəmli xəstələr arasında turşuya davamlı mikobakteriyanın (TDM) aşkarlanma dinamikası 2015-ci ildə 53 faiz olduğu halda, 2025-ci ildə bu göstərici 86 faizə çatıb. Həm həssas, həm də dərmanlara davamlı xəstələrin müalicə göstəriciləri daha yüksək olub.

Uşaq və yeniyetmələrin vərəmlə xəstələnmə göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşıb. Əgər 2015-ci ildə ölkədə 369 uşaq və yeniyetmə vərəmlə xəstələnmişdisə, 2025-ci ildə xəstələnən uşaq və yeniyetmələrin sayı 198 olub. Hətta 2024-cü il üçün bu göstərici 278 idi, bu da əhəmiyyətli dəyişiklik olmasının sübutudur».

İradə Axundova qeyd edib ki, Azərbaycanda vərəmin diaqnostikası və müalicəsi dövlət tərəfindən təşkil olunur və vətəndaşlar üçün tamamilə pulsuzdur: «Xəstələr dərman preparatları, laborator müayinələr və zəruri tibbi xidmətlərlə təmin olunurlar. Ölkəmizdə vərəmlə mübarizə dövlət səhiyyə siyasətinin prioritet istiqamətlərindən biridir. Son illərdə yeni nəsil dərman preparatlarının tətbiqi nəticəsində xüsusilə dərmana davamlı vərəm formalarının müalicəsində daha yüksək nəticələr əldə edilir və bəzi hallarda müalicə müddətini qısaltmaq mümkün olur. Səhiyyə Nazirliyi vərəmlə mübarizə sahəsində strateji planlaşdırma, metodiki rəhbərlik və profilaktik tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Eyni zamanda, əhalinin maarifləndirilməsi, erkən diaqnostikanın təşviqi vasitəsilə vərəmlə mübarizə tədbirləri davamlı şəkildə gücləndirilir. Ümumilikdə məqsədimiz yalnız xəstəliyin müalicəsi deyil, həm də erkən aşkarlanma, profilaktika və cəmiyyətin məlumatlandırılması yolu ilə vərəmin yayılmasının qarşısını almaqdır»,- deyə direktor vurğulayıb.

Qeyd edək ki, dünya əhalisinin təxminən 25%-i vərəm bakteriyasının daşıyıcısıdır. Müvafiq müalicə almayan aktiv vərəm xəstəsi hava-damcı yolu ilə yayılan bu infeksion xəstəliklə ildə orta hesabla 10-15 nəfəri yoluxdura bilər. Dünyada hər gün təxminən 30 min yeni yoluxma halı qeydə alınır, 3500-ə yaxın insan isə bu xəstəlikdən vəfat edir. Xəstəliyin inkişafına əsasən zəif qidalanma, zərərli vərdişlər (tütün, alkoqol), ağır yaşayış şəraiti və şəkərli diabet kimi xroniki xəstəliklər zəmin yaradır.

Düzgün müalicə ilə vərəm xəstələrinin 92-95 faizi tam sağala bilir. Həkimlər xatırladırlar ki, xəstəlikdən qorunmağın ən yaxşı yolu sağlam həyat tərzi və fiziki aktivlik, balanslı qidalanma, zərərli vərdişlərdən imtina, müntəzəm tibbi profilaktik müayinələrdir.

Vərəm sağalır, lakin hələ də dünyada hər il yoluxan 10 milyon insandan 3 milyonu lazımi müalicəni ala bilmir. Ümumdünya Vərəm Gününün əsas məqsədi məhz bu boşluğu doldurmaq və cəmiyyətin məlumatlılığını artırmaqdır.

# Azərbaycanda dərman bazarına necə nəzarət edilir?

*(Əvvəli səhifə 8-də)*

Dərman vasitələrinin idxalı ilə bağlı daxil olmuş müraciətlər əsasında ekspertizasının aparılması üçün hər partiya üzrə götürülmüş dərman vasitəsi nümunələri barədə farmasevtik məlumatlar (dərman vasitəsinin adı, təsiredici maddəsi, dozası, dərman forması, qablaşma miqdarı, aptekdən buraxılma şərti və s.), statistik məlumatlar (dərman vasitələrinin istehsal və idxal olunduğu ölkə, idxalçı şirkət, dərman vasitələrinin çeşidi, hər partiya üzrə miqdarı, qiyməti və ümumi dəyəri və s.), eləcə də laborator analiz üsulu və nəticələri barədə məlumatlar mərkəzin rəqəmsal «Analiz bazası"na daxil edilir və saxlanılır. Dərman vasitələrinin laborator analiz nəticələri barədə sertifikatı da yekun nəticəyə uyğun qaydada birbaşa bu sistem üzərindən çap edilir.

Toplanmış bu məlumatlar əsasında müvafiq hesabatlar hazırlanır və mövcud məlumatların analizi aparılır. Aparılmış məlumat analizləri əsasında qeyd etmək olar ki, ötən il ərzində müxtəlif xarici ölkələrdən ölkəmizə ümumi miqdarı təqribən 196 milyon qutu dərman vasitəsi idxal olunub. Bu dərman vasitələrinin idxal olunduqları ölkələri sıralayan zaman isə ilk beşlikdə Türkiyə, Almaniya, Fransa, Rusiya və İtaliya yer alır.

Onu da vurğulamaq istərdim ki, hazırda ərizəçilər tərəfindən Vahid Elektron Səhiyyə platforması üzərindən qəbul edilə biləcək müraciət növlərindən biri də dərman vasitələrinin idxalı ilə bağlı müraciətlərdir. Digər bir sistem «Dərman vasitələrinin təqib və izləmə sistemi" dərman vasitələrinin istehsaldan son istehlakçıyadək dövriyyəsinin rəqəmsal qeydiyyat və unikal identifikasiya mexanizmi vasitəsilə izlənilməsini təmin edən mühüm nəzarət alətidir. Bu sistem təchizat zəncirinin bütün mərhələlərində məlumatların real vaxt rejimində toplanmasına və mərkəzləşdirilmiş informasiya bazasında emal olunmasına imkan yaradır. Hər bir qablaşdırmaya tətbiq edilən unikal identifikasiya kodu məhsulun mənşəyini və hərəkət trayektoriyasını izləməyə şərait yaradır. Beləliklə, qeyri-qanuni idxal, saxta məhsullar və paralel satış kimi risklər minimuma endirilir. Apteklərdə hər satış əməliyyatının rəqəmsal qeydiyyatı təkrar satış və uçotdan kənar dövriyyə hallarını texniki olaraq məhdudlaşdırır. Sistem, eyni zamanda, riskəsaslı nəzarət modelinin formalaşmasına da imkan yaradır. Analitik alətlər vasitəsilə satış intensivliyi, partiya dövriyyələri və anbar məlumatları təhlil olunur və yüksəkriskli subyektlər prioritet monitorinqə cəlb edilir.

Dərman vasitələrinin istifadəsi zamanı yaranan əlavə təsirlər barədə məlumatların toplanması məqsədilə mobil tətbiqin QR kodunu ehtiva edən məlumat stikerləri müalicə-profilaktika müəssisələrində və aptek təşkilatlarında gözlə görünən yerlərdə yerləşdirilir.

**- Regionlarda dərman təminatı və keyfiyyətə nəzarət sahəsində vəziyyət necədir?**

- Bölgələrdə dərman təminatı orada fəaliyyət göstərən dərman vasitələrinin topdansatışı əczaçılıq fəaliyyəti ilə məşğul olan 53 topdansatış müəssisəsi və 1900 aptek tərəfindən həyata keçirilir. Bu əczaçılıq müəssisələrinin fəaliyyətinə və dərman vasitələrinin keyfiyyətinə nəzarət üçün qanunvericiliyə uyğun olaraq plan üzrə (növbəti) və daxil olan şikayət, məlumat və müraciətlər əsasında plandankənar (növbədənkənar) yoxlamalar keçirilir. Bu il ərzində regionlarda fəaliyyət göstərən 114 əczaçılıq müəssisəsində yoxlama keçirilib. Yoxlamalar nəticəsində 33 əczaçılıq müəssisəsində nöqsanlar aşkarlanıb, 64 adda, 178 qutu dövlət qeydiyyatı olmayan, düzgün saxlanma şəraitinə riayət edilmədən saxlanan və istifadə müddəti bitmiş dərman vasitələri satışdan kənarlaşdırılıb, nöqsanlara yol vermiş əczaçılıq müəssisələrinin sahibləri barədə İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri üzrə protokollar tərtib edilib.

# Belarus nümayəndələri Analitik Ekspertiza Mərkəzinin fəaliyyəti ilə tanış oldular

**Belarus Respublikasının Azərbaycandakı səfirliyinin nümayəndə heyəti tanışlıq məqsədi ilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzində (AEM) olub.**



Mərkəzdən verilən məlumata görə, Belarus Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Dmitri Pineviç, səfirliyin baş məsləhətçisi Tatyana Zubritskaya və səfirliyin birinci katibi Veronika Lisitskayadan ibarət nümayəndə heyəti AEM-in direktor müavini Rafiq Xudayev və Mərkəzin şöbə müdirləri ilə görüşüb. Görüşdə Belaruslu qonaqlara Azərbaycanın dərman tənzimləyici qurumu olan AEM-in fəaliyyəti barədə müvafiq məlumatlar verilib. Görüşün əsas məqsədi Belarus tərəfini Azərbaycanda dərman vasitələrinin qeydiyyatı və yenidən qeydiyyatı prosedurları, tənzimləyici çərçivə və dərman məhsullarının ekspertizasının praktik aspektləri ilə tanış etmək olub.

Müzakirələr ölkəmizdə dərman vasitələrinin qeydiyyatı proseduru və tələbləri, dərman vasitələrinin keyfiyyətinə və təhlükəsizliyinə nəzarət mexanizmləri, tənzimləmə proseslərinin rəqəmsallaşdırılması və optimallaşdırılması, dərman təchizatında təcrübə mübadiləsi və effektiv təcrübələrin tətbiqi kimi məsələləri əhatə edib.

Azərbaycan və Belarusun müvafiq qurumları arasında tərəfdaşlığın inkişaf perspektivlərinin müzakirə edildiyi görüş konstruktiv və işgüzar atmosferdə keçib və tərəflərin əməkdaşlığın inkişafında və peşəkar əlaqələrin gücləndirilməsində maraqlı olduğunu təsdiqləyib.

**Bir aylıq Ramazan dövründən sonra orqanizm qarışıq qida rejiminə yox, normal ritm və balanslı rejimə daha yaxşı cavab verir. Səhərdən axşama qədər ac qalmağa öyrəşmiş həzm sistemi üçün ən məntiqli yanaşma ilk gündən etibarən 3 böyük deyil, 3 əsas və 1-2 kiçik ara qəbul formasında qidalanmaqdır.**

# Ramazandan sonra qidalanmada 5 vacib qayda



**Bu fikirləri Səhiyyə Nazirliyinin rəsmi «Instagram» hesabında keçirilən canlı yayım zamanı Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, qastroenteroloq Emin Məmmədov açıqlayıb.**

Onun sözlərinə görə, səhər yeməyi mütləq bərpa edilməli, günün ilk yarısında zülal və lif üstünlük təşkil etməlidir, bu yeməkdə yumurta, qatıq, pendir, yulaf, tam taxıl çörəyi, tərəvəz və meyvə uyğun seçimlərdir: «Bayram süfrəsində yağlı plov, qovurma, kabab, dolma və şirniyyatın eyni oturuşda çox miqdarda qəbulu mədə boşalmasını ləngidir və xüsusən reflüks, dispepsiya, öd daşı, pankreatitə meyli olan şəxslərdə narahatlıq yarada bilər. Buna görə, ilk növbədə, «az-az yemək» prinsipi «hərəsindən bir boşqab» prinsipindən xeyli təhlükəsizdir. Yeməyə şorba, salat, qatıq və ya yüngül zülal mənbəyi ilə başlamaq sonradan şirniyyat və xəmir yeməklərinin miqdarını təbii olaraq azalda bilər.

Digər vacib məqam mayedir. Ramazandan sonra birdənbirə çox çay, qazlı içki və şirin şərbət içmək susuzluğu daha da artıra bilər. Gün ərzində su qəbulu mərhələli artırılmalı, çox şəkərli içkilər isə əsas maye mənbəyi kimi seçilməməlidir. Axşam saatlarında çox ağır yeməkdən sonra dərhal uzanmaq da reflüks və həzm pozuntusunu artırır. Yeməkdən sonra qısa gəzinti daha faydalıdır».

Mütəxəssis-ekspert bildirib ki, qastroezofageal reflüks xəstəliyi, xroniki qastrit, peptik xora, funksional dispepsiya, qıcıqlanmış bağırsaq sindromu, öd kisəsi daşı, şəkərli diabet, piylənmə və qaraciyər yağlanması olan şəxslər üçün bayramda çox yemək çox vaxt simptomların alovlanması ilə nəticələnir: «Bu qrupda porsiyanın kiçik saxlanması, şirniyyatın əsas yeməyin üzərinə deyil, ayrıca və az miqdarda qəbulu, həmçinin gecə yeməyinin yüngülləşdirilməsi daha məqsədəuyğundur. Qıcqırma, döşarxası yanma, köp, sağ qabırğaaltı ağrı və ya ürəkbulanma yaranırsa, bu artıq «bayram norması» deyil».

# Tütünçəkmədən imtinanın təşviqi üzrə maarifləndirmə tədbiri keçirilib

**Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) tərəfindən «Mehriban» Qadın və Uşaq Sığınacağında maarifləndirici tədbir təşkil edilib. Tədbirin məqsədi tütün və elektron siqaretlərin zərərləri barədə məlumatlandırma səviyyəsinin artırılması, zərərli vərdişlərdən imtinanın təşviqi və sağlam həyat tərzinin təbliği olub.**



Mərkəzdən verilən məlumata görə, tədbirdə İSİM-in baş hüquq məsləhətçisi Rüstəm Məmmədov və İctimai sağlamlıq şöbəsinin əməkdaşı Nərmin Azadova geniş təqdimatla çıxış ediblər. Çıxışlarda tütünçəkmənin orqanizmə mənfi təsirləri, zərərli vərdişlərdən imtina yolları, sağlam həyat tərzinin üstünlükləri, tütün məmulatlarından istifadənin məhdudlaşdırılması haqqında qanunun hüquqi aspektləri barədə ətraflı məlumat verilib.

Tədbirin sonunda interaktiv müzakirələr aparılıb və iştirakçıların sualları cavablandırılıb. Maarifləndirmə kampaniyasının tərkib hissəsi kimi sığınacaq sakinlərinə maarifləndirici çap materialları və İSİM tərəfindən hazırlanmış hədiyyələr təqdim olunub.

# «Tibbi tədqiqatların yol xəritəsi: İdeyadan nəticəyə»

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universiteti və nazirliyin K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutunun birgə təşkilatçılığı ilə Əməkdar elm xadimi, professor Nadir Tağıyevin 95 illik yubileyinə həsr olunmuş «Tibbi tədqiqatların yol xəritəsi: İdeyadan nəticəyə» adlı beynəlxalq elmi-praktik konfrans keçirilib.**





Tədbirin açılış mərasimi Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra Vətən uğrunda canlarından keçmiş şəhidlərin və professor Nadir Tağıyevin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Açılış nitqi ilə çıxış edən Səhiyyə Nazirliyi K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutunun direktoru, dosent Aynur Poluxova öz çıxışında professor Nadir Tağıyevin Azərbaycan tibb elminin inkişafında göstərdiyi böyük xidmətlərdən danışıb, onun elmi fəaliyyətinin və zəngin irsinin gənc nəsil həkim və tədqiqatçılar üçün örnək olduğunu vurğulayıb.

Daha sonra t.ü.f.d. Naibə Məmmədova görkəmli alim professor Nadir Tağıyevin həyat və yaradıcılığı haqqında ətraflı məlumat verərək, onunla bağlı xatirələrini iştirakçılarla bölüşüb.

Tədbirdə iştirak edən digər alimlər də çıxış edərək professor Nadir Tağıyevin Azərbaycan tibb elminin inkişafına verdiyi töhfələrdən danışıb, onunla bağlı xatirələrini və fikirlərini tədbir iştirakçıları ilə bölüşüb, mövzunun əhəmiyyətini bildirərək, konfransın işinə uğurlar arzulayıblar.

Konfrans çərçivəsində professor Nadir Tağıyevin həyat və elmi fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Konfrans iki seksiyada davam edib. Seksiyalarda tibbi elmi tədqiqatların planlaşdırılması, metodoloji yanaşmalar, klinik praktikada tətbiq imkanları və müasir tibbin aktual istiqamətləri üzrə məruzələr təqdim olunub və müzakirələr aparılıb.

# Qlaukomatoloqlar Bakıda toplaşdılar

## Korluğa səbəb olan göz xəstəlikləri arasında qlaukoma 2-ci yerdədir






**Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzində Beynəlxalq «Qlaukoma həftəsi» çərçivəsində Azərbaycan Qlaukomatoloqlarının VII elmi-praktiki konfransı keçirilib.**

Mərkəzdən xəbər verilib ki, konfransın keçirilməsində əsas məqsəd qlaukoma xəstəliyinin müasir diaqnostika və müalicə üsullarının müzakirəsi, bu sahədə əldə olunan son elmi nailiyyətlərin paylaşılması, həmçinin müxtəlif ölkələrdən olan mütəxəssislər arasında elmi və praktiki təcrübə mübadiləsinin aparılması olub.

Dövlət Himninin səsləndirilməsi ilə açıq elan olunan konfransda Azərbaycanın regionları da daxil olmaqla, ümumilikdə, 220 həkim, gənc oftalmoloq iştirak edib.

Qeyd olunub ki, dünyada 80 milyondan çox insan qlaukomadan əziyyət çəkir. Korluğa səbəb olan göz xəstəlikləri içərisində qlaukoma 2-ci yerdədir.

Tədbirin moderatorları qismində tibb elmləri doktorları Nizami Bağırov, Hicran Namazova, professor Ümit Ekşioğlu, tibb üzrə fəlsəfə doktoru Aybəniz Əhmədova çıxış ediblər.

Konfransda Azərbaycanla yanaşı, Türkiyə, Hindistan, İsveçrə, Böyük Britaniya, Sinqapur və Rusiyadan olan mütəxəssislər iştirak edib, həmçinin bəzi məruzəçilər tədbirə onlayn formatda qoşulublar.

Konfrans çərçivəsində qlaukoma sahəsində aktual mövzulara həsr olunmuş elmi məruzələr, o cümlədən «Qlaukomada yeniliklər», «Fərqli yaş qruplarında göz daxili təzyiqin yüksəlməsinin mümkün səbəblərinin müəyyən edilməsi», «Süni intellekt və qlaukoma», «Refraktiv cərrahi əməliyyatlardan sonrakı qlaukoma», «Vitrektomiya olunmuş pasiyentlərdə pars plana Baerveldt şuntunun implantasiyası: cərrahi nüanslar», «PRK, LASİK və Femto-LASİK əməliyyatlarından sonra steroid mənşəli oftalmohipertenziya», «Pars plana vitrektomiyadan sonra müxtəlif növ tamponadalar zamanı torlu qişanın qanqlioz hüceyrə layı qalınlığının dəyişikliklərinin dinamikası» və digər mövzularda təqdimatlar edilib.

Tədbir çərçivəsində qlaukomanın erkən diaqnostikası, müasir müalicə metodları, yeni texnologiyaların tətbiqi və oftalmologiya sahəsində innovativ yanaşmalar geniş müzakirə olunub.

Qeyd edilib ki, konfrans oftalmologiya sahəsində çalışan mütəxəssislər üçün yeni elmi biliklərin əldə edilməsi, müasir tibbi texnologiyalarla tanışlıq və beynəlxalq əməkdaşlığın inkişafı baxımından mühüm platforma rolunu oynayacaq.

# Azərbaycanda Qrip üzrə Milli İstinad Laboratoriyası gücləndirilir





**Azərbaycan Respublikasının Qrip üzrə Milli İstinad Laboratoriyasının potensialının daha da gücləndirilməsi və Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən rəsmi tanınma prosesinə hazırlıq məqsədilə Səhiyyə Nazirliyi ilə ÜST arasında mentorluq proqramı həyata keçirilir.**

Proqram çərçivəsində Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzi və K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutunun bazasında mentorluq missiyası təşkil olunub.

Missiya çərçivəsində Səhiyyə Nazirliyinin İctimai səhiyyə və xəstəliklərə nəzarət şöbəsinin məsləhətçisi Oleq Səlimov, ÜST-nin məsləhətçisi Andrey Komissarov və ÜST-nin ölkə ofisinin proqramlar üzrə rəhbəri, ölkə ofisinin rəhbərinin vəzifəsini müvəqqəti icra edən Cəvahir Süleymanova institutun laboratoriya şöbəsində olublar.

Səfər zamanı qonaqlar institutun laboratoriyalarında qrip virusunun laborator diaqnostikası istiqamətində həyata keçirilən fəaliyyətlərlə tanış olublar. Görüş çərçivəsində laborator xidmətlərin inkişafı, müasir diaqnostik yanaşmaların tətbiqi və beynəlxalq əməkdaşlıq imkanları barədə geniş fikir mübadiləsi aparılıb.

# «Böyük Qayıdış» Proqramı çərçivəsində Səhiyyə Nazirliyi Ağdamda tibbi müayinə keçirib

**Səhiyyə Nazirliyi «Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı» çərçivəsində əhali arasında kompleks tibbi müayinələrin aparılması və sağlam həyat tərzinin təşviqi istiqamətində tədbirləri davam etdirir.**









Nazirliyin mətbuat xidməti xəbər verir ki, qurumun təşkilatçılığı ilə növbəti belə tibbi aksiya Ağdam şəhərində keçirilib. Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Tibbi Bərpa İnstitutunun artroloq, nevroloq, travmatoloq, pediatr, dermatovenoroloq, fizioterapevt-reabilitoloqdan ibarət həkim heyəti və tibb bacıları tərəfindən sakinlər üçün səyyar tibbi müayinələr təşkil edilib.

Aksiya çərçivəsində vətəndaşlar nevroloji, artroloji, travmatoloji, dermatoloji, fizioterapevtik və pediatrik reabilitasiya istiqamətləri üzrə müayinələrdən keçirilib. Eyni zamanda, nevroloqlar tərəfindən EMQ (elektromioqrafiya) müayinələri də aparılıb.

Müayinələr zamanı səhhətində müəyyən problemlər aşkarlanan sakinlərə həkimlər tərəfindən ətraflı tibbi məsləhətlər verilib, zəruri hallarda müvafiq müalicə tədbirləri təyin olunub.

Tibbi baxışlar əsasən orta yaşlı əhali arasında onurğa, sinir sistemi, dayaq-hərəkət aparatı, dəri-zöhrəvi və serebrovaskulyar xəstəliklərin erkən aşkarlanmasına yönəlib. Bundan əlavə, 16-65 yaş arası şəxslər arasında skolioz və digər vertebrogen problemlərin diaqnostikası və bərpası aparılıb, 14 yaşadək uşaqlar isə pediatr müayinəsindən keçirilib.

Aksiya iştirakçılarına institutun fizioterapevt və reabilitoloqları tərəfindən profilaktik tövsiyələr də verilib. Bildirilib ki, fizioterapiya prosedurlarının tətbiqi zamanı pasiyentin yaşı, əsas və yanaşı xəstəlikləri, eləcə də gündəlik həyat fəaliyyəti mütləq nəzərə alınmalıdır.

Aksiya çərçivəsində 210-dan çox vətəndaş tibbi müayinələrdən keçib.

Qeyd edək ki, Səhiyyə Nazirliyi işğaldan azad olunmuş digər ərazilərdə də əhali üçün mütəmadi olaraq maarifləndirici tədbirlərin və səyyar tibbi müayinə aksiyalarının keçirilməsini nəzərdə tutur.

## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏSİ GÖSTƏRİLƏN VAKANT YERƏ MÜSABİQƏ ELAN EDİR

### Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu

***Balneofizioterapiya üzrə elm şöbəsi:***

Kiçik elmi işçi – 0.5

***Naftalan nefti ilə müalicə üzrə elm şöbəsi:***

Böyük elmi işçi -1.0 (t.ü.f.d.)
Kiçik elmi işçi -1.0

***Nevrologiya üzrə elm bölməsi:***

Böyük elmi işçi -1.0 (t.ü.f.d.)
Elmi işçi -1.0

***Terapiya üzrə elm bölməsi:***

Aparıcı elmi işçi -1.0 (t.ü.f.d.)
Böyük elmi işçi -1.0(t.ü.f.d.)

***Klinik neyrofiziologiya üzrə elmi laboratoriya:***

Böyük elmi işçi -1.0 (t.ü.f.d.)

***Təşkilati-metodik və informasiya patent işləri üzrə elm şöbəsi:***

Kiçik elmi işçi -1.0

*Ünvan: Xətai pr., 3.*
*Telefon: 466 44 43*

### Milli Onkologiya Mərkəzi

***Torakal onkologiya bölməsi:***

Rəhbər – 1.0 («Onkologiya» ixtisasında t.e.d.)
Elmi işçi – 1.0

***Şüa terapiyası bölməsi:***

Kiçikelmiişçi – 1.0

***Bədxassəli şişlərin epidemiologiyası və statistikası bölməsi:***

Rəhbər – 1.0 («Onkologiya» ixtisasında t.e.d., professor)
Kiçik elmi işçi – 1.0

*Ünvan: H.Zərdabi küç,. 79 b*
*Telefon: 537 – 08 – 11*

## Ötən ay 98 aptekdə yoxlama aparılıb

**Bu ilin fevral ayında Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi 98 aptekdə yoxlama keçirib.**

Mərkəzdən verilən məlumata görə, həmin yoxlamalardan 23-ü Bakıda, 75-i isə ölkənin digər şəhər və rayonlarındakı apteklərdə aparılıb.

Yoxlamaların 77-si planlı, 20-sı plandankənar, 1-i isə yoxlamadankənar olub.

Aparılmış yoxlamalar nəticəsində 31 aptekdə müxtəlif nöqsanlar aşkarlanıb və həmin pozuntularla bağlı İnzibati Xətalar Məcəlləsinin 215.4, 221.1, 452.1, 452.3 və 452.4-cü maddələri üzrə müvafiq inzibati protokollar tərtib olunub.

AEM
Analitik Ekspertiza Mərkəzi

- Aptek sayı 98
- Planlı 77
- Plandankənar 20
- Yoxlamadan kənar 1
- Nöqsanlar 31
- Maddələr üzrə protokol sayı 38

www.pharma.az

Baş redaktor:
N.MƏCİDOVA
Baş redaktorun müavini:
S.NƏBİYEVA
Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.
Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92
Ünvan:
Həsən bəy Zərdabi küç., 96.
3-cü mərtəbə, 6-cı otaq
Tel./faks: (012) 596-06-61
E-mail: tibbqazeti@mail.ru
www.tibbqazeti.az

*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər.*
*Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*